Azərbaycan.- 2021.- 21 aprel. S. 1.

## Prezident İlham Əliyevin Hacıqabul rayonuna səfəri

# Hacıqabulda həm sənaye, həm də kənd təsərrüfatı müasir üsullarla inkişaf edir

## Ulu Öndərə ehtiram



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Hacıqabul rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ümummilli Lider Heydər Əliyevin Hacıqabul şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov rayonda görülən işlər barədə dövlət başçısına məlumat verdi.